# AZƏRBAYCANDA QABIQYEYƏN BÖCƏKLƏRİN (*Coleoptera, Curculionidae, Scolytinae*) ÖYRƏNİLMƏ DƏRƏCƏSİ VƏ TƏSƏRRÜFAT ƏHƏMİYYƏTİ HAQQINDA

**Kəmalə İsayeva*, Gülnarə Aslanova**

*AR ETN Zoologiya İnstitutu, Bakı*
**kemale.behlulqizi@mail.ru*

Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması dövlət siyasətində prioritet məsələlərdən biridir. Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu Öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə tədbirlər görülüb. Xalqımızın Ümummilli Lideri ölkəmizin yaşıllıqlar diyarına çevrilməsi üçün bir çox tədbirlərin görülməsinə nail olub. Heydər Əliyev respublikamızın bütün bölgələrində yaşıllığa diqqəti yenidən artırdı və planetin ağciyərləri olan meşələrin qorunmasını yenidən gündəmə gətirdi.

Daha sonra bu işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Onun imzaladığı fərmanlarda, təsdiq etdiyi milli və dövlət proqramlarında ekoloji problemlərin həlli üçün zəruri olan bütün vəzifələr elmi əsaslarla, müasir dövlətçilik ənənələrinə söykənərək müəyyənləşdirilmişdir. Həmin sənədlər sırasında "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsinə dair Milli Proqram", "Azərbaycan

Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı", "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı", "Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" Ölkə Prezidentinin 30 oktyabr 2007-ci il tarixli, eləcə də "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirlməsi tədbirləri haqqında" 13 iyun 2009-cu il tarixli sərəncamlarını və s. göstərmək olar. Bütün bunlar Prezident İlham Əliyevin bioloji müxtəlifliyin qorunması, meşələrin bərpası, ekoloji vəziyyətin yaxşılaşdırılması kimi önəmli məsələləri daima diqqət mərkəzində saxladığını göstərir.

Lakin istər dünyada, istərsə də respublikamızda hər il külli miqdarda ağac, kol və ot bitkiləri bir sıra zərərverici həşəratlar tərəfindən intensiv şəkildə məhv edilir. Bu zərərvericilər arasında qabıqyeyən böcəklər (*Coleoptera, Curculionidae, Scolytinae*) xüsusilə təhlükəlidirlər. Belə ki, onlar ağac və kol bitkilərinin qabıqları altında və oduncağında inkişaf edərək qidalanır və həmin bitkilərin qismən və ya tamamilə qurumasına səbəb olurlar. Ot bitkilərinə zərərverən az sayda qabıqyeyən böcək növləri də (*Thamnurgus, Hylastinus* cinslərinə aid növlər) məlumdur. Əsasən müxtəlif təbii hadisələr (külək, çovğun, yağıntı) və ya ilkin zərərvericilərin hücumu nəticəsində zəifləmiş, xəstə, tələf olmaqda olan bitkilərə hücum edən qabıqyeyən böcəklər tamamilə sağlam bitkilərin də zəifləyərək məhv olmasına səbəb ola bilirlər. Qabıqyeyən böcəklərin ağaclara vurduğu zərər nəticəsində ağaclar fizioloji cəhətdən zəifləyir, texniki göstəriciləri aşağı düşür və bir müddət sonra bitki quruyur.

Bütün qabıqyeyən böcəklər (*Scolytinae*) bitki mənşəli qidalanmaya malikdirlər və bu səbəbdən də öz qida bitkiləri ilə sıx bağlıdırlar. Onların bədən quruluşları ağac qabığı altında və oduncaqda yollar qazımağa uyğun bir forma almışdır. Hər bir növ qabıqyeyən böcək həmişə müəyyən bir növ ağacda və ya yaxın növlü ağaclarda məskunlaşır. Qidalanma tipinə görə onlar ksilofaqlara aid edilirlər. Qabıqyeyən böcəklər qidalanma xüsusiyyətlərinə əsasən xarici görünüşləri bir-birindən fərqlənən 3 qrupa bölünürlər: lifyeyənlər (*Hylesininae*), oduncaqyeyənlər (*Scolytinae*) və əsl qabıqyeyənlər (*Ipinae*) [1].

Qabıqyeyən böcəklərin (*Scolytinae*) dünyada 6000 növü, keçmiş SSRİ-də 300 növü, Qafqazda 137 növü məlumdur [2; 3]. Adətən, xəstə və zəifləmiş ağaclarda rast gəlinən bu böcəklər bəzi illərdə kütləvi çoxalaraq sağlam ağaclara da hücum edirlər. Bu zaman onlar meşə və bağçılıq təsərrüfatlarına çox geniş miqyasda zərər vururlar. Məhz bu səbəbdəndir ki, qabıqyeyən böcəklərin öyrənilməsi hələ qədim dövrlərdən insanların diqqət mərkəzində olmuşdur.

Azərbaycanda yayılmış qabıqyeyən böcəkləri ilk dəfə entomoloq N.H.Səmədov tədqiq etmişdir. O, 1963-cü ildə çapdan çıxmış "Azərbaycanda kənd təsərrüfatı bitkilərinə zərər verən böcəklərin fauna və biologiyası" adlı kitabında 11 növ qabıqyeyən böcək haqqında ətraflı məlumat vermişdir ki, bu qabıqyeyən böcəklərin də 9 növü ağac bitkilərinin, 2 növü isə ot bitkilərinin zərərvericisidir. Müəllif bu qabıqyeyən böcəklərin dünyada və Azərbaycanda yayılması, zərər verdikləri bitkilər, onların uçuş dinamikası, inkişaf tsiklləri haqqında məlumat vermişdir [2].

Tərəfimizdən aparılmış tədqiqatlara əsasən respublikamızda – Böyük Qafqazın cənub yamaclarında meşə və meyvə ağaclarına zərər vuran 15 cinsə aid 30 növ qabıqyeyən böcək müəyyən edilmişdir. Onlardan 16 növ ciddi ziyanvericidir. Müəyyən edilmiş 30 növ qabıqyeyəndən 5 növü (*Hypoborus ficus, Scolytus amygdali, S.fasciatus, S.mali, S.rugulosus*) əsasən meyvə ağaclarının zərərvericisidir. 22 növ qabıqyeyən böcək əsasən meşə ağaclarına zərər vurur. 3 növ qabıqyeyən böcəyə isə (*X.saxeseni, X.dispar, H.lezhavai*) həm meşə, həm də meyvə ağaclarında rast gəlinmişdir. Çox həssas duyğu qabiliyyətinə malik olan qabıqyeyənlər məskunlaşacaqları yeri ehtiyatla seçirlər. Belə ki, bəzi növlər çoxalma üçün yalnız enliyarpaqlı ağaclarda, digərləri isə yalnız iynəyarpaqlı ağaclarda məskunlaşırlar. Tədqiqat ərazisində rast gəlinmiş 30 növ qabıqyeyən böcəkdən 8 növ yalnız iynəyarpaqlı bitkilərlə qidalanır. Yalnız 2 növ qabıqyeyən böcək (*Chaetoptelius vestitus* Rey., *Xyleborus saxeseni* Ratz.) polifaq növ olub, həm iynəyarpaqlı bitkilərlə, həm də enliyarpaqlı bitkilərlə qidalanır ki, onların da sayı çox azdır. 20 növ qabıqyeyən böcək isə yalnız enliyarpaqlı bitkilərlə qidalanır. Tədqiqat ərazisində rast gəlinmiş 30 növ qabıqyeyən böcəkdən 3 növü (*Blastophagus minor* Hart., *Hylesinus botscharnikovi* Stark., *Xyloterus domesticus* L.) əsasən bir bitki ilə qidalandığından monofaq hesab oluna bilər.

Qabıqyeyən böcəklər meyvə ağaclarının ciddi zərərvericiləridirlər. *Scolytus mali* – Meyvə qabıqyeyəni, *Scolytus rugulosus* – Qırışıqlı qabıqyeyən, *Scolytus amygdali* – Badam qabıqyeyəni, *Scolytus fasciatus* – Ərik qabıqyeyəni, *Hypoborus ficus* – Əncir qabıqyeyəni müxtəlif növ qiymətli meyvə ağaclarına zərər verirlər.

Onlar ağacların qismən qurumasına səbəb olaraq, meyvə ağaclarının məhsuldarlığını aşağı salır, məhsulun kəmiyyət göstəricilərinə böyük təsir göstərirlər. Güclü yoluxma zamanı isə ağacların tamamilə qurumasına səbəb olurlar.

Qabıqyeyən böcəklərin içərisində meşə ağaclarının zərərvericiləri də mühüm yer tutur. Şam ağacına zərər verən *Blastophagus piniperda* – Böyük şam qabıqyeyəni, *Blastophagus minor* – Kiçik şam qabıqyeyəni, palıd ağaclarına zərər verən *Scolytus intricatus* – Palıd qabıqyeyəni, iynəyarpaqlı ağaclara zərər verən *Trypodendron lineatum* – Zolaqlı qabıqyeyən və digər növlər meşə ağaclarına böyük zərər vururlar. Bu zaman meşə ağaclarının yararlılığı azalaraq keyfiyyət göstəriciləri aşağı düşür.

Qabıqyeyən böcəklərin bəzi növləri də vardır ki, onlar geniş polifaq olub, həm meyvə, həm də meşə ağaclarının zərərvericisidir. Belə ki, *Xyleborus dispar*, *X.saxeseni*, *Hypothenemus lezhavai* kimi növlər həm meşə, həm də meyvə ağaclarına ciddi zərər yetirirlər.

Beləliklə, məhsuldar və yaşıllıq yaradan ağac və kol bitkilərinə, həmçinin bəzi ot bitkilərinə ciddi ziyan vuran qabıqyeyən böcəklər (*Coleoptera, Curculionidae, Scolytinae*) respublikamızda ən təhlükəli bitki zərərvericiləri sırasındadırlar. Bu zərərvericilərin ölkəmizdə yayılması, həyat tərzi, bioekologiyasının ətraflı öyrənilməsi və ətraf mühitə zərər vurmadan onlarla mübarizə tədbirlərinin işlənib hazırlanması günümüzün aktual məsələlərindəndir.

**Ədədbiyyat :**

1. И.Я.Шевырев. Загадка короедов. Москва: Лесная промышленность, 1969.

2. Н.Г.Самедов. Фауна и биология жуков, вредящих сельскохозяйственным культурам в Азербайджане. Баку: изд-во АН Азерб, 1963.

3. T.V.Nikulina. The keys for identification of bark-beetles (*Coleoptera: Curculionidae: Scolytinae*) of Ukraine. Caucasian Entomological Bulletin, 2014, 10 (1) – p. 89-106.